UOT 33

Şirin Cavanşir qızı RAMAZANOVA,
doktorant, Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC),
shirin-ramazanova@unec.edu.az
https://doi.org/10.30546/4.71.73001.2024.004.054

RƏQƏMSALLAŞMA ŞƏRAİTİNDƏ İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏ İQTİSADİYYATIN İDARƏ EDİLMƏSİNİN ELMİ -NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə

Tədqiqatın məqsədi - işğaldan azad edilmiş ərazilərdə rəqəmsal iqtisadiyyatın təşəkkül tapması və idarəetmənin iqtisadi-hüquqi bazasının formalaşması prosesinin araşdırılmasıdır. Məqalədə rəqəmsallaşma şəraitində ərazilərin idarə edilməsinin elmi-nəzəri əsasları araşdırılaraq bu sahədə Azərbaycanda təşəkkül tapan iqtisadi - hüquqi mühit təhlil olunmuş, idarəetmənin rəqəmsallaşması perspektivlərinə münasibət bildirilmişdir. Rəqəmsallaşmanın işğaldan azad edilmiş ərazilərdə iqtisadi proseslərin idarə edilməsi sisteminə təsiri tədqiq edilmişdir.

Tədqiqatın metodologiyası - müşahidə, müqaisəli təhlil, məntiqi ümumiləşdirmə üsullarına əsaslanmışdır.

Tədqiqatın tətbiqi əhəmiyyəti - işğaldan azad edilmiş ərazilərin idarə edilməsində rəqəmsal mühitin imkanlarının reallaşdırılmasının konseptual müddəalarının işlənib hazırlanmasından ibarətdir.

Tədqiqatın nəticəsi – rəqəmsallaşma şəraitində işğaldan azad edilmiş ərazilərin iqtisadiyyatının idarə edilməsində istifadə olunan elmi nəzəriyyə araşdırılmışdır.

Tədqiqatın orijinallığı və elmi yeniliyi – işğaldan azad edilmiş ərazilərin rəqəmsallaşması üzrə hüquqi bazanın formalaşması prosesi təhlil olunmuşdur.

Açar sözlər: rəqəmsallaşma prosesi, rəqəmsal iqtisadi mühit, idarəetmə, postmünaqişə əraziləri, blokçeyn, hüquqi baza.

Giriş

Rəqəmsallaşma hazırda dünya ölkələrinin milli prioritetləri sırasında ilk cərgələrdə yer tutur. İlk növbədə biznesin təşkilində tətbiq edilən rəqəmsallaşma daha sonrakı mərhələlərdə ölkənin rəqəmsallaşması üçün zəmin yaradır. İşğaldan azad edilmiş ərazilərin bərpasında yüksək texnologiyalardan istifadə zəruriliyi ali dövlət rəhbərliyi səviyyəsində bəyan edilmişdir. Bu istiqamətdə, habelə rəqəmsal mühitin üstünlüklərindən istifadə istiqamətində sistemli və davamlı tədbirlər həyata keçirilir. Həmin tədbirlərin səmərəliliyinin yüksəldilməsi baxımından elmi təminatın gücləndirilməsinə ehtiyac vardır.

İşğaldan azad edlimiş ərazilərdə rəqəmsal iqtisadi münasibətlərin təşəkkülü

Rəqəmsal iqtisadiyyat - əhalinin həyat keyfiyyətinin yüksəldilməsi, ictimai istehsalın səmərəliliyinin artırılması, iqtisadiyyatın dayanıqlı artımının dəstəklənməsi məqsədi ilə elmi nailiyyətlərə və informasiya-kommunikasiya texnologiyalarına əsaslanan kateqoriyalar sistemidir.

Rəqəmsal iqtisadiyyatın inkişafı üçün əlverişli rəqəmsal mühit formalaşmalıdır. Rəqəmsal mühit digər mühitlərin riyazi qanun və texnoloji modellər əsasında modifikasiya olunmuş formasıdır. Rəqəmsal mühitin inkişafı iqtisadi fəaliyyətin səmərəliliyini artırır. Artan temp və genişlənən əhatə dairəsi lazım olan informasiya bazasını formalaşdırır. İnformasiya bazasından vacib qərarların qəbulu üçün istifadə edilir. İnformasiyanın açıqlığı və əlyetən olması rəqəmsal mühiti formalaşdırır.

Rəqəmsal mühit yaradılarkən bir neçə qiymətləndirmə meyarından istifadə edilir: məşğulluq, məkan, texnoloji, iqtisadi. 1-ci halda rəqəmsal texnologiyaların məşğulluğun strukturuna və səviyyəsinə nə dərəcədə təsir edə bilməsi araşdırılır. Çünki rəqəmsal iqtisadiyyatın gözləntilərindən biri məşğulluğun səviyyəsinin yüksəldilməsidir. 2-ci halda rəqəmsallaşması nəzərdə tutulan ərazinin coğrafi meyarları təhlil edilir. İnformasiya-kommunikasiya texnologiyaları vasitəsi ilə tətbiq edilən

innovasiyaların istifadəçilər üçün əlçatanlığının qiymətləndirilməsi texnoloji meyara aiddir. İqtisadi meyar dedikdə isə sərf olunacaq məsrəflər və əldə ediləcək mənfəət araşdırılır. Ənənəvi iqtisadiyyatda olduğu kimi rəqəmsal iqtisadiyyata keçid zamanı da xərclər əldə ediləcək mənfəəti keçməməlidir.

Rəqəmsal transformasiya – təşkilatın və ya dövlətin fəaliyyətinin bütün sahələrinə rəqəmsal texnologiyaları tətbiq etməklə təqdim etdiyi xidmətləri tamamilə dəyişdiyi bir prosesdir. Rəqəmsal transformasiya həm də bütövlükdə proses və xidmətlər sisteminin yenidən qurulduğu yeni iqtisadi mühiti formalaşdırır. İKT cəmiyyətin bütün sahələrinə nüfuz edərək rəqəmsal transformasiya resurslarından effektiv istifadə edir və innovasiyaların tətbiq edilməsində hərəkətverici qüvvə rolunu oynayır. İnnovasiyalar rəqəmsal iqtisadiyyatın inkişaf tempini və proporsiyalarını şərtləndirən əsas amillərdən birinə çevrilir. “Rəqəmsal iqtisadiyyatda innovasiyalı inkişafın hansı yolla gedəcəyini dəqiq praqnozlaşdırmaq qeyri-mümkün olduğundan, bu hal risklərdən biri kimi qəbul edilir” [10].

“Rəqəmsal iqtisadiyyatın əsas cizgilərinə “hər yerdə olan” mobil internet, daima ucuzlaşan istehsal qurğuları, süni intellekt və öyrədən maşınlar aid edilir” (Schwab, 2017). Göründüyü kimi, rəqəmsal transformasiyanın ilkin şərtlərindən biri fasiləsiz və sürətli internet şəbəkəsinin olmasıdır. Buna görə də ölkə üzrə hər yerdə genişzolaqlı internet şəbəkəsi qurulmalı və ucqar ərazilərdə də rəqəmsal infrastruktur yaradılmalıdır. İnternetə çıxış imkanının kənd və şəhər əhalisi arasında fərq olmamalıdır. İnformasiya uçurumu aradan qaldırılmalıdır.

Rəqəmsal iqtisadiyyatın 3 tərkib hissəsi var. İşgüzar elektron əməliyyatlar, elektron kommersiya, digər tərkib hissələr. İşgüzar elektron əməliyyatlar kompüter şəbəkəsi vasitəsi ilə virtual bazarda mövcud olan iştirakçıların arasında reallaşan biznes münasibətlərini əks etdirir. Elektron kommersiya rəqəmsal iqtisadiyyatın ən iri seqmenti olmaqla internet vasitəsi ilə mal və xidmətlərin hərəkətini ifadə edir. Kommersiya fəaliyyətləri İKT vasitələri ilə rəqəmsal şəbəkədə öz əksini tapır. Kommersiya fəaliyyətlərinin xərcləri azalır, şəbəkə yaratmaq qabiliyyəti elə sürətlə artır ki, bu artım inkişaf deyil, inqilab adlanır. “Rəqəmsal iqtisadiyyatın şəbəkə yaratmaq qabiliyyəti onun səmərəliliyinin və inkişafının mühüm şərtlərindəndir” (Balayev, 2019, Mahiyyət və perspektivlər).

Rəqəmsal iqtisadiyyatın inkişafını kəmiyyət cəhətdən qiymətləndirmək üçün qəbul edilmiş indikatorlar sistemi olmasa da, “İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən tövsiyə olunan indikatorlar sisteminin təcrübədə tətbiqi məqbul hesab edilir”(Balayev, 2019, Mahiyyət və perspektivlər). Həmin indikatorlara “iqtisadiyyatın yüksək texnologiya sahələrinin inkişafı, onun emal sənayesi məhsulları və xidmətlərində xüsusi çəkisi; elmi layihələrə, proqram təminatının yaradılmasına, təhsilə və əlavə yenidən hazırlığa investisiyalar; informasiya – kommunikasiya avadanlıqlarının işlənib hazırlanması və buraxılışı; elm və yüksək texnologiyalar sahəsində yeni iş yerlərinin yaradılması və s.” aiddir [12].

Rəqəmsallaşan cəmiyyətdən bəhs edərkən şəhərlərin fəaliyyətinin təsirindən yan ötmək olmaz. Şəhər mühiti iqtisadi cəhətdən aktiv zona sayılır. Bu mühit sanki inkişaf üçün poliqon rolunu oynayır. Bu cür şəhərlərin rəqəmsal sahəsi onun fiziki sahəsindən daha tez genişlənir. Bu zaman təhlükəsizlik, açıqlılıq, dayanıqlılıq və ekoloji stabilliyin təmin edilməsi prinsipləri nəzərə alınmalıdır. Dayanıqlı inkişafın dəsklənməsi nöqteyi-nəzərindən informasiya cəmiyyətinin texnoloji imkanları inteqrasiya olunmuş fəaliyyətlər nəticəsində genişlənir. İnteqrasiyanın səviyyəsi rəqəmsal cəmiyyətin formalaşmasının ilkin poliqonu və aktiv iqtisadi zona sayılan iri şəhərlərdə daha yüksək olur. Urbanizasiya rəqəmsallaşma mühitini formalaşdırır və onu genişləndirir. İntensiv urbanizasiya və rəqəmsal mühit texnoloji yeniliklərə zəmin yaradır.

“Rəqəmsal iqtisadiyyat şəhərlərdə inkişaf edir. Eyni zamanda şəhərlərdə müxtəlif problemlər olur. Nəqliyyat və ekoloji problemlər, hər kəsin yaşayışı üçün yaxşı mühitin yaranması, istehsalat müəssisələrini şəhərdən kənara çıxartmaq və s. Bu problemləri kompleks halda həll etmək mümkündür” [8].

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dayanıqlı məskunlaşmanın təmin edilməsi və əhalinin məşğulluğunun bərpa edilməsi istiqamətində mühüm işlər görülür. “Böyük qayıdış proq-

ramına əsasən 2026-cı ilə qədər Böyük Qayıdış proqramının I mərhələsinin tamamlanacağı və bu mərhələdə 140 min məcburi köçkünün Qarabağ və Şərqi Zəngəzura qayıdacağı planlaşdırılır"[13]. Hal-hazırda İAEƏ-nin 3 şəhərində (Şuşa,Laçın,Füzuli) və 4 kəndində repatriantların məskunlaşdırılması təmin edilmişdir. Zəngilan rayonunun Ağalı kəndi işğaldan sonra əhalinin məskunlaşdığı ilk yaşayış yeridir. Həmçinin 2024-cü il 10 may tarixindən etibarən Laçın rayonunun 3 yaşayış məntəqəsində də (Laçın, Zabux, Sus) azərbaycanlıların məskunlaşdırılması təmin edilmişdir. Bu ərazilərdə "əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, məişət şəraitinin yaxşılaşdırılması, enerji daşıyıcılarla təminat probleminin həll olunması, müasir yolların çəkilməsi, sosial infrastrukturun qorunması, istehsal infrastrukturunun formalaşması zamanı yüksək və "ağıllı" texnologiyalardan istifadə edilməsinə üstünlük verilir"[7, s. 257].

Postmünaqişə ərazilərində idarəetmənin rəqəmsallaşması

Rəqəmsal texnologiyaların tətbiqi yüksək sürətlə yayılır və rəqəmsallaşma insan həyatının və fəaliyyətinin bütün sahələrinə sürətlə nüfuz edir. Rəqəmsal iqtisadiyyatın formalaşmasından danışarkən dövlətin rolunu unutmaq olmaz. Dövlət tənzimlənməsinin vacibliyi birinci növbədə rəqəmsal proseslərin qlobal xarakter daşımasından irəli gəlir. "İqtisadiyyatda rəqəmsal texnologiyaların kütləvi hal alması rəqəmsallaşmanın insan həyatının bütün sahələrinə nüfuz etməsi, bu proseslərin qloballaşması və qloballaşmanın təşviq edilməsi kimi meyillər göstərir ki, dövlət rəqəmsal iqtisadiyyata biganə qala bilməz" (Balayev, 2019, Dövlətin tənzimləyici təsirləri). Rəqəmsallaşma qlobal proses olduğuna görə onun reallaşması, səmərəli təşkili və tənzimlənməsinə yanaşmalar ayrı-ayrı ölkələrdə müxtəlifdir.

Rəqəmsallaşma proseslərinə dövlət tənzimlənməsinin nə dərəcədə vacib olub-olmaması haqqında müxtəlif yanaşmalar mövcuddur. Rəqəmsal iqtisadiyyatda dövlət tənzimlənməsinin müzakirəsinə daha çox postsovet ölkələrində, ya da rəqəmsallaşma prosesinə yeni başlamış ölkələrdə rast gəlmək olar. Adətən inkişaf etmiş ölkələrdə rəqəmsal iqtisadiyyatın tənzimlənməsi məsələsi müzakirə mövzusu olmur. Çünki bu ölkələrdə normativ-hüquqi baza öz-özünə formalaşır və inkişaf edir.

Rəqəmsal iqtisadiyyatda əsasən aşağıdakı münasibətlərin tənzimlənməsi nəzərdə tutulur: elektron kommersiyanın tənzimlənməsi, texniki xidmət göstərənlərin fəaliyyətinin bir sıra aspektləri, verilənlərin qorunması, rəqəmsal iqtisadiyyatın təhlükəsizliyi, rəqabət münasibətləri və s. Rəqəmsallaşma prosesində dövlət tənzimlənməsinin ən vacib rolu informasiya təhlükəsizliyi və gözlənilən digər təhdidlərdən qorumaq olmalıdır.

Verilənlərin qorunması və təhlükəsizlik baxımından blokçeyn texnologiyasına nəzər salaq. Mərkəzləşdirilmiş sistemlərdən fərqli olaraq (Alibaba, Uber, AirBnb və s.) Blokçeyn "aşkar mərkəzi olmayan" bir şəbəkə kimi başa düşülür. Blokçeyn texnologiyasında verilənlər hər kəs üçün əlçatan olur. Burada saxtalaşdırma halları mümkün olmur. "Eyni şəbəkədə işləyən müxtəlif kompüterlər vasitəsi ilə şifrələnmə prosesi baş tutur. Hesablama prosesinə hər bir kompüterdə eyni nəticə aldıqda bloka unikal rəqəmsal imza atılır. Reyestr yeniləndikdən və onda yeni blok təşkil edildikdən sonra, o dəyişdirilə bilmir. Bununla da onu dəyişdirmək mümkün olmur"(Balayev, 2019, Dövlətin tənzimləyici təsirləri).

Strukturlaşma problemləri qarşıya çıxdıqca, rəqəmsallaşmada dövlətin hüquqi tənzimlənməsi məsələsi daha da aktuallaşır. Bildiyimiz kimi dövlət iqtisadiyyata müəyyən çatışmazlıqları aradan qaldırmaq üçün müdaxilə edə bilər. Məsələn, haqsız rəqabət, inhisarçılıq, kənardan olan mənfi təsirlər, makroiqtisadi qeyri-sabitlik, həddən artıq sürətli inflyasiya, işsizlik, regional inkişaf problemləri və s.

Qeyd etdiyimiz kimi, rəqəmsal iqtisadiyyatın dəstəklənməsində dövlət amilinin rolu böyükdür. Xarici ölkələrin təcrübəsinə baxdıqda rəqəmsal texnologiyaların tətbiq edildiyi sahələri genişləndirməkdə dövlət dəstəyinin müsbət nəticə verdiyini izləmək mümkündür. Bir çox ölkələrdə artıq rəqəmsal xidmətlərin və elektron hökumətin inkişafı sayəsində şəffaflığın və səmərəliliyin artımına nail olunub. Son illərdə Azərbaycan Respublikasının da qarşısında duran əsas məsələlərdən biri iqtisadiyyat və cəmiyyətin rəqəmsal transformasiyasıdır.

Həmçinin AR-nın qarşısında duran əsas vəzifələrdən birincisi İAEƏ-nin ölkə iqtisadiyyatına

reinteqrasiyasıdır. Bu problemin həllinin sürətlənməsi rəqəmsallaşma prosesi vasitəsi ilə həyata keçirilir. Ona görə də rəqəmsal iqtisadi fəaliyyətin nizamlanması üçün normativ-hüquqi bazanın formalaşması prosesinin sürətlənməsi bir zərurətə çevrilib. “Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir”[3]. Azərbaycan Respublikasının prezidentinin “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” sərəncamında nəzərdə tutlmuş strateji milli prioritetlərdən biri məhz ölkə iqtisadiyyatının bütün sahələrinin rəqəmsallaşmasıdır.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində “Dördüncü Sənaye İnqilabının Təhlili və koordinasiya Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikasının prezidentinin Fərmanına əsasən qlobal iqtisadiyyatda cərəyan edən və rəqabət qaydalarını dəyişən dördüncü sənaye inqilabına əsasən AR-nın mövqeyini gücləndirmək və bu sahədə aparıcı ölkələr sırasında yer almasının təmin edilməsi haqqında qərar qəbul edilib[2].

İKT sahəsində infrastruktur quruculuğu, müasir texnologiyaların tətbiqi və modernizasiyası sayəsində mühüm işlər görülməkdədir. Azərbaycan Respublikasının prezidentinin rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında Fərmanında deyilir: “İqtisadiyyatın və dövlət idarəetməsinin səmərəliliyinin, informasiya təhlükəsizliyinin və vətəndaşların yaşayış səviyyəsinin yüksəldilməsi məqsədi ilə İKT infrastrukturunun əsasını təşkil edən genişzolaqlı internet şəbəkəsinin inkişafı, G-cloud(hökumət buludu), BigData(böyük həcmli məlumatlar), Smart city(ağıllı şəhər), Smart village(ağıllı kənd) kimi rəqəmsal təşəbbüslər həyata keçirilir”[4].

Azərbaycan Respublikası Prezidentinin “2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətlərinin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi” haqqında Sərəncamında şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək məqsədi ilə beynəlxalq təcrübədə geniş tətbiq edilən rəqəmsal iqtisadiyyatın vergiyə cəlb edilməsi ilə bağlı tapşırıqlar verilmişdir[1]. Dövlətin tənzimləyici təsirləri sırasında əsasən dolayı üsullar, vergi dərəcəsi və gömrük rüsumlarının tənzimlənməsi, dövlətin investisiya siyasəti və s. üstünlük təşkil edir.

“Rəqəmsal iqtisadiyyatın tətbiqi dövlətin iştirakı olmadan bir qədər çətindir. Kommersiya şirkətləri rəqəmsallaşma prosesinə müstəqil formada başlayır, dövlət idarələrində isə rəqəmsallaşma prosesinin başlaması üçün dövlətin təşəbbüsü və qanunvericiliyin dəyişdirilməsi lazımdır” [11, s. 144].

Rəqəmsallaşma prosesinin hüquqi və iqtisadi cəhətdən tənzimlənməsi metodiki və informasiya təminatını formalaşdırır. Tənzimləmə meyarları elə olmalıdır ki, rəqabət mühitinə mənfi təsir etməsin. Bazar iqtisadiyyatında özünütənzimləmə prosesində meydana çıxan problemlərin həllinə kömək edən texnoloji dəstək rolunu oynamalıdır. Bu texnoloji dəstəyin qiymətləndirilməsi metodiki məsələdir. Lakin bu qiymətləndirmənin alqoritmi və ya ona ümumi bir yanaşma yoxdur.

Təəssüf ki, XXI əsrdə hələ də müharibələr baş verir. Müharibənin baş verdiyi ərazilərdə infrastruktur, yollar, yaşayış məntəqələri darmadağın olur. Belə ərazilərdə iqtisadiyyat, demək olar ki, yenidən qurulur. İşğaldan azad edilmiş əraziləri idarə etmək üçün rəqəmsallaşmanın üsul və vasitələrindən istifadə etmək lazım gəlir.

Rəqəmsallaşmanın yaratdığı yeni iqtisadi vəziyyət işğaldan azad edilmiş ərazilərin daha sürətlə inkişaf etməsinə imkan yaradır. Rəqəmsallaşdırma prosesində yenidən strukturlaşma ön planda olur. İşğaldan azad edilmiş ərazilərdə isə bütün infrastruktur yenidən qurulur. Bu dediklərimizi nəzərə alaraq belə nəticəyə gəlmək mümkündür ki, rəqəmsallaşma prosesini işğaldan azad edilmiş ərazilərdə tətbiq etmək yeni bir təcrübə olacaq. Çünki, bu ərazilərdə infrastruktur demək olar ki, sıfırdan, yəni yenidən qurulur. Ona görə də rəqəmsal iqtisadiyyat üçün bu ərazilər bir növ təcrübə meydanıdır. Bu ərazilər startap layihələr üçün açıq meydan rolunu oynaya bilər. Xarici ölkələrin təcrübəsindən bəhrələnmək, investisiya qoyuluşları cəlb etmək olar. Burada bir məqamı da qeyd etmək lazımdır ki, hər hansı bir ərazi nə qədər də texnoloji avadanlıqlarla təchiz olunsa, rəqəmsallaşmanın son nailiyyətləri tətbiq edilsə də, İAEƏ-də iqtisadiyyatın inkişaf etməsi üçün dayanıqlı məskunlaşma olmalıdır.

Rəqəmsal mühitin nüvəsini texnologiyalar təşkil edir. Texnologiyalar isə sürətlə dəyişərək birbirini kəsilməz proses ilə əvəzləyir. Bu prosesi həyata keçirtmək üçün təcrübənin olması önəmlidir. Lakin çox vaxt bu prosesdə təcrübə nəzəriyyəni qabaqlayır və hüquqi bazanın formalaşması ləngiyir. Rəqəmsallaşma iqtisadiyyata sürətlə nüfuz etdiyindən rəqəmsal iqtisadiyyatın nəzəri-metodoloji bazasının formalaşması prosesinin nəzəri hissəsi onun praktiki hissəsindən geri qalır. Ona görə də rəqəmsallaşmanın tənzimlənməsi üzrə normativ-hüquqi baza tədricən formalaşır.

Dayanıqlı inkişaf nöqteyi-nəzərindən informasiya cəmiyyəti iqtisadi, sosial, texnoloji və ekoloji problemlərin birgə qəbul edilmiş qərarlarının dəyişməzliyini təmin etməlidir. Həmçinin, texnoloji inkişaf ekoloji prinsiplər əsasında idarə olunmalıdır. İnformasiya təhlükəsizliyinin qorunması üçün addımlar atılmalı, böyükhəcmli məlumatların qorunmasında kibertəhlükəsizliyə dövlət təminat yaratmalıdır. İnformasiya axtarışı sistemləri, distant təhsil, elektron kommersiya və digər rəqəmsal fəaliyyət sahələri normativ qaydalar əsasında tənzimlənməlidir.

Rəqəmsal iqtisadiyyatın bütün sahələrə nüfuz etdiyi bir dövrdə dövlət rəqəmsallaşmaya biganə qala bilmir. İqtisadi tənzimləmə mexanizmləri rəqəmsal mühitdə adətən texnoloji dəstək formasında daha çox elmtutumlu sahələrdə büruzə verir.

Rəqəmsal iqtisadiyyatın inkişafı hər zaman dövlətçiliyin möhkəmlənməsini, milli iqtisadi təhlükəsizliyin qorunmasını təmin edə bilmir. Lakin rəqəmsal texnologiyaların tətbiqi nəticəsində yaranan iqtisadi mühit bir çox sosial, ekoloji və regional problemləri həll etməyə qadirdir. İnformasiya təhlükəsizliyi və müəllif hüquqlarının qorunması rəqəmsal iqtisadiyyatın məhdudiyyəti olaraq qalır.

Əslində XXI əsrdə işğaldan azad edilmiş və rəqəmsallaşma yoluna qədəm qoymuş bir ərazi və ya ölkə nümunəsi göstərmək bir qədər çətindir. Çünki rəqəmsallaşmanın nəzəriyyəsi və metodologiyası hələ yenicə formalaşmağa başlayır. Belə demək olar ki, bu mövzuda nəzəriyyə hələ pərakəndə formadadır.

Dünya yüksək templə dəyişir. Rəqəmsallaşan dünya inkişaf edir. Biz bu inkişaf tempinə uyğunlaşmaq üçün əlimizdə olan resurslardan maksimum faydalanmalıyıq.

Nəticə

Rəqəmsal iqtisadiyyatın məqsədi insanların rifah halını yüksəltmək və həyat keyfiyyətini yaxşılaşdırmaqdır. Rəqəmsallaşma urbanizasiya olan ərazilərdə daha səmərəli təşkil oluna bilir. Bir növ iri şəhərlər sanki rəqəmsallaşma üçün zəmin yaradır. İşğaldan azad edilmiş ərazilərdə isə əhalinin sayı ilk vaxtlarda yetərli qədər olmur. Lakin rəqəmsal iqtisadiyyatda məkandan asılılıq dəyişir. Dayanıqlı məskunlaşma, eləcə də uzaqdan işləmək, uzaqdan idarə etmək imkanı, həmçinin mütəxəssisləri cəlb etməyin mümkünlüyü bu problemin həllində çıxış yolu ola bilər.

Rəqəmsal iqtisadiyyatın sürətli inkişafı əslində onun tənzimlənməsi prosesini çətinləşdirir. Həmin iqtisadiyyat sürətlə inkişaf etdiyindən lazımi dərəcədə strukturlaşa bilmir. Rəqəmsallaşmada, eləcə də texnologiyada baş verən inkişaf normativ-hüquqi bazanın təşəkkülü prosesinin sürətini üstələdiyindən sistem əməlgətirmə prosesi ləngiyir.

ƏDƏBİYYAT

1. https://e-qanun.az/framework/33468 Azərbaycan Respublikasının prezidentinin 2016-cı il 4 avqust tarixli "2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri"nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında Sərəncamı.
2. https://president.az/az/articles/view/49932 Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 yanvar tarixli Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxsin yaradılması haqqında Fərmanı.
3. https://president.az/az/articles/view/50474 Azərbaycan Respublikasının prezidentinin 2021-ci il 2 fevral tarixli "Azərbaycan 2030: sosial iqtisadi inkişafa dair milli prioritetlər" Sərəncamı.
4. https://president.az/az/articles/view/51299 Azərbaycan Respublikasının prezidentinin 2021-ci

il, 27 aprel tarixli “Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında” Fərmanı.
5. Balayev R.Ə. (2019), Rəqəmsal iqtisadiyyata dövlətin tənzimləyici təsirləri və texnoloji dəstək imkanları haqqında, İl 7, Cild 7, aprel- iyun, 2019, səh. 35 - 44 .
6. Balayev R.Ə. (2019), Rəqəmsal iqtisadiyyat: mahiyyət və perspektivlər, “Kooperasiya” jurn. №2(53), 2019 s. 28-33.
7. Quliyev E.A. (2023), Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının Azərbaycanın davamlı inkişafında rolu, “Kooperasiya”nəşriyyatı.
8. Balayev R.Ə., Alizada M. N., Hacızada S. Z. (2020), Capabilities of Urbanizosiya Processes Resilience in the Digital Environment, THE JOURNAL OF ECONOMIC SCIENCES: THEORY AND PRACTICE, V.77, # 1, 2020, pp. 65-83.
9. Klaus Schwab (2017), The Fourth İndustrial Revolution, 2017, 196 p.
10. Беликова К.М. (2018), Особенности правового регулирования цифровой интеллектуальной экономики,Закон и право. 08, 2018, с.26-30.
11. Махалин В.Н., Махалина О.М. Роль государства и бизнеса в проведении цифровой трансформации в России // Научный форум: Экономика и менеджмент: сб. ст. по материалам XII междунар. науч.-практ. конф. № 10(12). Москва, Изд. «МЦНО», 2017. с. 135-144.
12. Семячков, К.А. (2017), Цифровая экономика и ее роль в управлении современными социально-экономическими отношениями// Современные технологии управления. ISSN 2226-9339. №8 (80). Номер статьи: 8001. Дата публикации: 2017-08-28. Режим доступа: https://sovman.ru/article/8001
13. https://www.yeniazerbaycan.com/Sosial_e86626_az.html

Ширин Джаваншир гызы Рамазанова
Азербайджанский Государственный
Экономический Университет (UNEC),
докторант
shirin-ramazanova@unec.edu.az

Научно-теоретические аспекты управления экономикой на территориях, освобожденных от оккупации, в условиях цифровизации

Резюме

Цель исследования - рассмотреть формирование цифровой экономики на освобожденных территориях и формирование экономико-правовой основы управления. В статье исследованы научно-теоретические основы управления территориями в условиях цифровизации, проанализирована экономическая и правовая среда, сложившаяся в Азербайджане в этой сфере, и выражено отношение к перспективам цифровизации управления. Изучено влияние цифровизации на систему управления экономическими процессами на территориях, освобожденных от оккупации.

Методы исследования основаны на наблюдении, сравнительном анализе, методах логического обобщения. Ограничением исследования является отсутствие исследований и данных с точки зрения оцифровки постконфликтных территорий.

Практическая значимость и научная новизна статьи заключается в разработке концептуальных положений реализации возможностей цифровой среды в управлении территориями, освобожденными от оккупации.

Результат исследования - исследована научная теория, используемая в управлении экономикой территорий, освобожденных от оккупации в условиях цифровизации.

Оригинальность и научная новизна исследования - проанализирован процесс формирования правовой основы цифровизации территорий, освобожденных от оккупации.

Ключевые слова: процесс цифровизации, цифровая экономическая среда, управление постконфликтными, правовые рамки.

Shirin Javanshir Ramazanova
Azerbaijan State University of Economics (UNEC),
doctorate
shirin-ramazanova@unec.edu.az

Scientific-theoretical aspects of economic management in territories freed from occupation in the conditions of digitization

Summary

The purpose of the study is to examine the formation of the digital economy in the liberated territories and the formation of the economic-legal basis of management. In the article, the scientific-theoretical basis of territory management in the conditions of digitalization was investigated, the economic and legal environment formed in Azerbaijan in this field was analyzed, and the attitude towards the prospects of digitalization of management was expressed. The impact of digitization on the management system of economic processes in the territories freed from occupation has been studied.

Research methods are based on observation, comparative analysis, logical generalization methods. A limitation of the study is the lack of research and data in terms of digitization of post-conflict areas.

The practical importance and scientific innovation of the article consists in the development of conceptual provisions for the realization of the possibilities of the digital environment in the management of territories freed from occupation.

The result of the research - the scientific theory used in the management of the economy of territories freed from occupation in the conditions of digitization was investigated.

The originality and scientific novelty of the research - the process of formation of the legal basis for the digitization of territories freed from occupation was analyzed.

Keywords: digitization process, digital economic environment, governance post-conflict areas, blockchain, legal framework.